**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyi**

*Haraya:* **Təmimi**
*Göndərilmə nömrəsi:* ***S/16-3580/16/17*** *Tarix:* ***09.02.2017***
*Sənəd necə göndərilir:* **Elektron poçt**
*Səhifələrin sayı:* 2 **Əlavə olunur** _____
*Məhdudlugu qrifi:* **Adi**
*Təciliiyi:* **Təcili**
*Vacibliyi:* **Vacib**

"Konsulluq əməliyyatlarından yığılan dövlət rüsumunun büdcəyə köçürülməsinə dair"

Hörmətli diplomatik nümayəndəlik və konsulluqların rəhbərləri,

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin s/16-4884/16/14 saylı 18.02.2014-cü il tarixli və s/16-32150/16/16 saylı 22.12.2016-cı il tarixli məktublarında xarici ölkələrdəki diplomatik nümayəndəlik və konsulluqlarında aparılan konsulluq əməliyyatları üçün alınan dövlət rüsumunun Azərbaycan Respublikasının "Dövlət rüsumu haqqında" Qanununun 17.6 maddəsinə əsasən bir ay ərzində növbəti ayın 5-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməsinin təmin edilməsi barədə məlumat verilmişdir.

Buna baxmayaraq, Azərbaycan Respublikasının bir sıra diplomatik nümayəndəlik və konsulluqları tərəfindən 2017-ci ilin yanvar ayı üzrə konsulluq əməliyyatları üçün alınan dövlət rüsumu fevral ayının 5-dək dövlət büdcəsinə köçürülməsi təmin edilməmişdir.

| № | Diplomatik nümayəndəlik və konsulluğun adı | № | Diplomatik nümayəndəlik və konsulluğun adı |
|---|---|---|---|
| 1 | Birləşmiş Ərəb Əmirliklərindəki səfirlik | 10 | Qırğız Respublikasındakı səfirlik |
| 2 | Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirlik | 11 | Rumıniyadakı səfirlik |
| 3 | Cənubi Afrika Respublikasındakı səfirlik | 12 | Səudiyyə Ərəbistanı Krallığındakı səfirlik |
| 4 | Çin Xalq Respublikasındakı səfirlik | 13 | Tacikistan Respublikasındakı səfirlik |
| 5 | İndoneziya Respublikasındakı səfirlik | 14 | Xorvatiya Respublikasındakı səfirlik |
| 6 | Latviya Respublikasındakı səfirlik | 15 | Efiopiya Federativ Demokratik Respublikasındakı səfirlik |
| 7 | Meksika Birləşmiş Ştatlarındakı səfirlik | 16 | Əlcəzair Xalq Demokratik Respublikasındakı səfirlik |
| 8 | Misir Ərəb Respublikasındakı səfirlik | 17 | Mərakeş Krallığındakı səfirlik |
| 9 | Özbəkistan Respublikasındakı səfirlik | 18 | Polşa Respublikasındakı səfirlik |

Bildiririk ki, diplomatik nümayəndəlik və konsulluqlar tərəfindən konsulluq əməliyyatları üçün alınan dövlət rüsumunun dövlət büdcəsinə vaxtında köçürülməsinin təmin edilməsinə görə diplomatik nümayəndəlik və konsulluqların rəhbəri və maliyyə məsələləri üzrə attaşesi məsuliyyət daşıyır.

Qeyd olunanları nəzərə alaraq, konsulluq əməliyyatları üçün alınan dövlət rüsumunun "Dövlət rüsumu haqqında" Qanunun tələblərinə və Xarici İşlər Nazirliyinin təlimatlarına uyğun olaraq vaxtında dövlət büdcəsinə köçürülməsi təmin edilsin.

Hörmətlə,

MMVİ-nin rəisi Lamiyə Canəhmədova

MMVİ-nin şöbə müdiri Ramil Ağazadə

İcraçı:
MMVİ-nin aparıcı məsləhətçisi Qüdrət Balakişiyev
09.02.2017-ci il.